Kredo.- 2023.- 2 mart.- S.16.

# LAÇIN UÇDU ZİRVƏDƏN

*Şair Əhməd Fərhadın oğlu Laçının ölümünə elegiya*

**Bulud-bulud ana qəlbi ötdü, keçdi zirvədən,**
**Dağlar qalan, ağlar qalan kədər içdi zirvədən.**
**Qələm sındı, söz qırıldı, yazı qaldı yarıda,**
**Göy gurladı, şimşək çaxdı, Laçın uçdu zirvədən.**

Laçın... şair Əhməd Fərhadın ikinci oğlu. Mənə həm uşaqlıq dostu, həm də yaxın qohum olan Əhməd Fərhaddan heç bircə dəfə də soruşmamışam ki, sən necə olub ki, oğluna Laçın adı vermisən?

Süleyman Saninin "Laçın yuvası", Sabir Əhmədlinin məşhur povestinin ədəbi qəhrəmanı Laçın və bütün bunların hamısından əzəl Azərbaycanın nadir bir incisi, qədim Abdallar üçün Tağı Şahbazinin seçdiyi Laçın adı.

Qısqıvraq, qoçaq, ağlı, düşüncəsi çevik adamlara Elat yerində "Laçın kimi oğuldur" deyərlər. Laçın qızılquş, şahin obrazlarının düşüncədəki qeyri-adi əks-sədasıdır.

Dünyada adının mahiyyətinə uyğun yaşamaq, özü də fövqəlgüc istəyən bir mahiyyətdir. Mənə elə gəlir ki, şair Əhməd Fərhadın oğlu Laçın bütün görünüşündə, davranışında, fikir şığımalarında elə bir laçınlıq daşıyıcısı idi.

Ölümlərin çox acı yaşantısı var. Qəfil ölümlərin xəbərini qavramaq üçün insan düşüncəsi çox gücsüzdür.

Laçının ölüm xəbəri mənim üçün yaddaşımın - demək, dünyanın bir tərəfinin qopması kimi idi.

Laçın... həmişə bu adı təkrar edəndə, eşidəndə, elə ad kimi çox nadir olan bu sözün daşıyıcısını görəndə yaddaşımda bəlkə də başqaları üçün o qədər də əhəmiyyət kəsb etməyəcək təəssüratlar oyanırdı. Bu təəssüratları məndən sözbəsöz bu gün soruşan olsa, heç nə deyə bilmərəm. Təkrar edib təkid edən olsa hönkür-hönkür ağlayaram.

Laçının ömür yolu gözlərimin önündə keçib. Cəbrayıldan gələndə onun bəlkə heç 10 yaşı da yox idi.

Laçıngil genetik olaraq istedadlıdırlar. Xüsusilə riyaziyyat, duyum sahəsində əvəzolunmaz güc daşıyıcılarıdır. Qardaşı Rəşadın, bacısı Humayın fitri, anadangəlmə istedad gücləri hələ uşaq vaxtlarından görünürdü.

Hərdən soruşurlar; Qarabağın işğalı Azərbaycana hansı itkilər bahasına başa gəlib? Əlbəttə, şəhidlik ağrıları birinci sıradadır. Yerin-yurdun talan olması, dağıdılması da vətən üçün sinə dağıdır. Ancaq mənə elə gəlir ki, Qarabağın işğalı nə qədər istedadın, fitri düşüncə övladının hələ beşikdəcə boğulması deməkdir.

Laçının belə qəddarcasına tale qəzəbinə tuş gəlməsi məndə çox ağır hisslərlə müşayiət olunur. Düşünürəm ki, əgər Qarabağ işğal olunmasaydı, gör Azərbaycanın nə qədər zəngin elmi-mədəni potensialı çiçəklənə bilərdi.

Sinəmin başı dağlandı. 43 yaşı hələ tamam olmayan bir gənc fəhmi, fərasəti ilə atasından əxz elədiyi sənətinin gücünə işləmişdi. Ev-eşik qurmuşdu.

Laçının evinin şəklini mənə göstərdilər. Az qala, adamın düşüncəsi qəbul etmir. Hələ heç 40 yaşı da olmayan bir gənc üçün öz gücünə möhtəşəm bir ev tikmək, onu sahmana qoymaq indiki zamanımız üçün nə deməkdir. Bunu hər kəs öz hesabı ilə də çəkə bilər.



Laçının anası Nərminə Məmmədqızı mənim qaynımın övladıdır. Uzun zaman boyu, otuz il ərzində gözləri ilə od götürərək Laçının boyunu sevmişdi. Sinəmin başı dağlandı; "Ay ellər, mənim Laçınımı qoymayın gedə".

Haracan, necə saxlamaq olar əbədi yolda olan karvanı?!

Dostum Elçin Kamal həmişə deyərdi ki, hər oğul özü bir ev qurmalıdır. Tikmәlidir yox ha, ev qurmalıdır. Bəlkə də günüməcən oxuduğum kitablarda yazılanların hamısından yuxarı duran bir sözdür. Laçın özünə ev qura bilən oğul idi və o evi qura bilmişdi.

İnsanın izi qalmalıdı. Qurduğu evi ilə, dünyaya gətirdiyi övladları ilə.

Həmin ağır günlərin facianə sinemasında gördüyüm mənzərəni yəqin ki, həyatım boyu unuda bilməyəcəm; Laçının həyat yoldaşı İlahənin bircə günün içində solmuş qızılgül görkəmini.

Laçının anası Nərminənin fəryadları yaddaşımdan silinməyəcək: "Ay Tunar, ay Dəniz, qoymayın, atanız getdi...". İndi oğulsan bundan sonra yaz görüm, nəsə yaza bilirsənmi, danış görüm, nəsə danışa bilirsənmi?

Laçının bacısı Humayın fəryadlarını görənlər yəqin ki, heç vaxt unutmayacaq.

Nə vaxtsa bir filmə baxmışdım; əsərin qəhrəmanı deyir ki, dayan, hara ölürsən? Müharibə vaxtı ürəkdən ölmək olarmı?

Gənc bir oğlanın qəflətən ürəktutmasından ölməsini düşüncənin həzm etməsi asan deyil.

Mən bilirəm, Laçının ölümü üçün yazdığım bu elegiya kimsəyə bir təsəlli deyil. Fədakar ana obrazının daşıyıcısı Nərminə üçün bu sözlərin bəlkə də bir təskinlik qədər gücü yoxdur. Oğlunu itirən anaya sözün məlhəmi mümkünmü?

Oğul itkisi... özü də Laçın kimi oğulun itkisi. Təkcə ata üçün yox, həm də nəsil üçün nə deməkdir - bunu başı çəkənlər bilər.

Mənə elə gəlir ki, şairlər ölümü qeyrilərindən daha asan qavrayır. Amma ağrını yaşamaq artıq hər kəsin öz canından keçən hissdir.

Şair Əhməd Fərhad bundan sonra necə yazacaq, yazılarında Laçının obrazı necə görünəcək? Bu onun özünün gücü qədərində olacaq.

Həmişə demişəm, yaxşı övlad, ağıllı gənc təkcə öz atası, anası üçün deyil.

Laçın könlümüzün zirvəsindən uçdu.

Ə. Xələfli

*01.03.2023*